

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

19 avqust 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 31 (3544)


# QARABAĞDA VƏ ŞƏRQİ ZƏNGƏZURDA QURUCULUQ İŞLƏRİNƏ BAŞLANILIB

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarında olublar.

Müharibədən sonra Kəlbəcərə ilk səfərinin olduğunu deyən ölkəmizin rəhbəri yolboyu Ermənilərin törətdiyi dağıntılardan, vəhşiliklərdən söz açıb və tezliklə Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəyini bildirib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11,6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Basarkeçər-Kəlbəcər yolunun Laçın dəhlizindən əlavə Ermənistanı Qarabağla birləşdirmək üçün çəkilən ikinci yol olduğunu deyən dövlətimizin başçısı bu gün Ermənistan ərazisində olan bölgələrin tarixi adlarına da diqqət çəkib. Qeyd edib ki, "Vardenis rayonu" deyilən bölgənin əsl adı Basarkeçərdir və qədim Azərbaycan torpağıdır. Bütün qədim, yəni tarixi adların bərpa edilməsinin vacibliyini bildirən Prezident İlham Əliyev jurnalistlərdən reportaj, məqalə hazırlayarkən bu yerlərin əsl adlarını çəkmələrini xahiş edib.

Ölkəmizin rəhbəri "Kəlbəcər-1" Su Elektrik Stansiyasının yerinə gəlib və görülən işlərlə tanış olub. Ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının tam yenidən tikildiyini və işlərin qarşıdan gələn aylarda başa çatdırılmasının planlaşdırıldığını diqqətə çatdırıb.






Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak ediblər. Dövlətimizin başçısı yarımstansiyanı işə salıb.

Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoyan Prezident İlham Əliyev Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yollarının xüsusi əhəmiyyət daşıdığını nəzərə çatdırıb.

Dövlətimizin başçısı və birinci xanım Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Laçın Beynəlxalq Hava Limanının təməlini qoyublar. Tədbirdə Prezident İlham Əliyev nitq söyləyib.

Səfər çərçivəsində Prezident və birinci xanım Kəlbəcərdə arıçılarla görüşüb söhbət ediblər.

Daha sonra ölkəmizin rəhbəri Kəlbəcər şəhərinə gəlib.

Dövlətimizin başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaldıb və görüləcək işlər barədə fikirlərini bölüşüb.

# MAARİFLƏNDİRMƏ DƏ BİR MÜBARİZƏDİR

**Polis əməkdaşları qapalı məkanlarda, ictimai nəqliyyatda və Bakı Metropoliteninin bütün stansiyalarında maska taxmayan və yaxud ondan düzgün şəkildə istifadə etməyən şəxslərlə profilaktik söhbət aparılıb.**



Nazirlər Kabinetinin qapalı məkanlarda, ictimai nəqliyyatda, eləcə də metroda maska taxmağın məcburi olması ilə bağlı müvafiq qərarına uyğun olaraq hər kəs tərəfindən bu normaya riayət edilməsinin vacibliyi sərnişinlərin diqqətinə çatdırılıb.

Qeyd edilib ki, tibbi maska tənəffüs yollarını qoruyan fərdi vasitə olduğu üçün ağız, o cümlədən burun nahiyəsini tam olaraq bağlamalıdır və virusla mübarizədə əsas amillərdən biri məhz tibbi maskadan düzgün istifadə edilməsidir. Əgər vətəndaş maskadan düzgün istifadə etmirsə qanunvericiliyin tələbinə uyğun olaraq barəsində inzibati tənbeh tədbiri tətbiq olunur.




Tədbir zamanı vətəndaşların diqqətinə bir daha çatdırılıb ki, COVID-19-un yayılmasının qarşısını almaq məqsədi ilə polis əməkdaşları tərəfindən nəzarət profilaktik tədbirlər bundan sonra da metroda və digər sərnişin nəqliyyat vasitələrində davam etdiriləcək.

# NARKOTACİRLƏRƏ QARŞI ƏMƏLİYYATLAR DAVAM ETDİRİLİR

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının paytaxtın Nizami və Yasamal rayonunda həyata keçirdikləri əməliyyatlar zamanı qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilən külli miqdarda narkotik maddələri onlayn yolla əvvəlcədən deyilən ünvanlara qoymaqla satışını təşkil edən, həmçinin narkotik vasitələrin satışından əldə edilən çirkli pulların müxtəlif yollarla xarici ölkələrdəki banklara transfer olunmasına köməklik göstərən Xəyal Quluzadə, onun tanışı Aydın Kərimov və Zaur Məmmədov saxlanılıblar.

X.Quluzadə və A.Kərimovun üzərində şəxsi axtarış aparılan zaman onlardan 100 qrama yaxın, paytaxtın Nizami rayonunda yaşadıqları evdən isə əlavə 3 kiloqram 205 qram heroin, 794 qram tiryək, 2 kiloqram 400 qram marixuana və 1 kiloqram 30 qram metamfetamin aşkar olunub. Z.Məmmədovun üzərindən və yaşadığı evdən isə ümumilikdə 11 kiloqram 650 qram heroin aşkar edilib.

Araşdırma zamanı müəyyən edilib ki, X.Quluzadə, A.Kərimov və Z.Məmmədov xaricdə yaşayan narkotacirlərlə əlaqə yaradaraq onlar üçün ölkə ərazisində narkokuryerlik edən yerli vətəndaşlardan ibarət şəbəkə yaradıblar. Bu şəxslər narkokuryerliyə cəlb etdikləri şəxslərə müxtəlif şirnikləndirici vədlər verərək onları ələ almağa çalışıblar.

Yasamal rayonunda həyata keçirilən növbəti əməliyyatlar zamanı isə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan daha 3 nəfər - Elçin Məmmədov, Əzizbala Məmmədov və Zülfü Həsənov saxlanılıblar.

Nəsimi rayonunda həyata keçirilən əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Mirvaqif Bağırov, Zərbəli Şahverdiyev və Qurban Yusifov saxlanılıblar.

Nərimanov və Qaradağ rayonlarında həyata keçirilən əməliyyatlar zamanı da narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Ramin Abdullayev və Ələsgər Zərbəliyev saxlanılıblar.

Sumqayıt şəhəri Corat qəsəbəsində həyata keçirilən sonuncu əməliyyat zamanı isə əvvəllər məhkum olunmuş Vüqar Mehtiyev saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 51 qram, yaşadığı evdən isə əlavə 2 kiloqram 30 qram heroin aşkar edilib. Araşdırma zamanı V.Mehtiyevin Sumqayıt şəhəri və ətraf qəsəbələrdə narkotiklərin satışı ilə məşğul olduğu məlum olub.

*Ardı 4-cü səhifədə.*

# "MƏN AZƏRBAYCANLIYAM!",-deməyə haqqı var

**Vətən müharibəsində ağır yaralanaraq sol ayağını itirən cəsur silahdaşlarımızdan biri də DİN Daxili Qoşunların hərbi qulluqçusu, çavuş Puçaxov Kamran İmran oğludur.**

O, 1993-cü il oktyabrın 11-də Balakən rayonunun Tülü kəndində doğulub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Tülü kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2011-2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra 2013-cü ildə DİN Daxili Qoşunlarında xidmət etmək üçün müraciət edib. Müraciətinə müsbət cavab verilib və o, Gəncə şəhərindəki "N" saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb. Kamran 2018-ci ilin mayından yaralandığı günədək hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda atıcı-snayper vəzifəsində xidmət edib.

Hərbi qulluqçumuz Kəlbəcər, Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak edib.

Müharibə xatirələrini bizimlə bölüşən silahdaşımız ağır yaralanmasına baxmayaraq, bu gün də Vətən uğrunda döyüşməyə və onun yolunda canından belə keçməyə hazır olduğunu bildirdi: "İlk döyüşümüz 2020-ci il sentyabrın 27-də Kəlbəcər istiqamətində oldu. Qarşı-qarşıya döyüşməyə cəsarəti çatmayan düşmən bizi durdurmaq üçün olduğumuz mövqeləri minaatan və digər iriçaplı silahlarla atəşə tutmağa başladı. Bu zaman mənimlə birgə vuruşan və əslən Kəlbəcərdən olan



çavuş Abdullayev Həsən Aydın oğlu aldığı qəlpə yarasından qəhrəmancasına şəhid oldu, digər silahdaşımız çavuş Sabir Əbdürrəhmanlı isə partlayış zərbəsindən xəsarət aldı. Ağır döyüşlərdən sonra ermənilərin uzun illər Murovdağ istiqamətində nəzarətdə saxladıqları strateji əhəmiyyətli hakim yüksəklikləri azad etdik. Bundan sonrakı döyüş tapşırığımız Füzuli və Cəbrayıl rayonları ərazisində oldu. Ona görə də tutduğumuz postları digər qruplara təhvil verib, Beyləqan istiqamətində hərəkətə başladıq".

Kamran, həmçinin, döyüşçü yoldaşı çavuş S.Əbdürəhmanlının sağaldıqdan sonra Füzuli



rayonu ərazisində onunla birgə yenidən hərbi əməliyyatlara qatıldığını və Cəbrayıl istiqamətində şəhidlik zirvəsinə ucaldığını qürur hissi ilə qeyd edir: "Bir neçə gün Beyləqanda qaldıqdan sonra bizi Füzuli rayonu ərazisinə gətirdilər. Burada döyüşçü yoldaşım Sabiri görəndə gözlərimə inanmadım. O, Müdafiə Nazirliyinin Gəncə şəhərindəki hərbi hospitalında müalicə aldıqdan sonra vuruşmaq üçün yenidən Füzuliyə bizim yanımıza gəlmişdi.



Bir neçə gündən sonra Cəbrayıl istiqamətində gedən döyüşlərə qatıldıq. Cəbrayıl şəhərinin girişində, "Dostluq bulağı" deyilən ərazidə şiddətli döyüşlər oldu. Oktyabrın 8-də Cəbrayıl istiqamətində baş vermiş ağır döyüşlərin birində çavuş Əbdürrəhmanlı Sabir Faiq oğlu şəhidlik zirvəsinə ucaldı. Bu döyüşdə hərbi qulluqçumuz, baş çavuş Nurlan Babayevlə birgə Müdafiə Nazirliyinin 3 nəfər xüsusi təyinatlısı da yaralandı.

Cəbrayıl şəhəri və ətraf ərazilər tam təmizləndikdən sonra bizi Qubadlı istiqamətinə gətirdilər. Gəldiyimiz ilk gündən şiddətli döyüşlərdə iştirak etdik. Oktyabrın 19-da səhər düşmən üzərinə hücuma keçməli idik. Səhərin alaqaranlığında kolon şəklində taxıl üçün şumlanmış ərazidə hərəkətdə olarkən mən və məndən irəlidə hərəkət edən Müdafiə Nazirliyinin zabiti kapitan Polad Rzayev də minaya düşdük. Çünki düşmən geri çəkilərkən hara gəldi mina basdırmışdı. Bizi tez bir zamanda döyüş meydanından təxliyyə etdilər".

Vətən uğrunda sol ayağını itirən igid qazimizin ən böyük təsəllisi isə otuz ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etməyimizdir: "Qalib ölkənin əsgəri olmaq, eləcə də üçrəngli bayrağımızın işğaldan azad olunan ərazilərimizdə dalğalanmasını görmək son dərəcə qürurvericidir. Yaralarımızın ən şəfalı məlhəmi də məhz elə budur".

Azərbaycan Respublikası Prezidentinin 18, 24, 29.12.2020-ci il tarixli və 24.06.2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Puçaxov Kamran İmran oğlu "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# Məqsəd birdir...

## Artan xəstə sayına görə profilaktik tədbirlər gücləndirilib



Son günlər ölkəmizdə koronavirus pandemiyasına yoluxanların sayında kəskin artım müşahidə edildiyindən vətəndaşlarımızın bu xəstəlikdən qorunması və onun yayılmasının qarşısının alınması üçün genişmiqyaslı kompleks tədbirlərə başlanılıb.

Belə ki, əhali arasında virus əleyhinə vaksinasiya tədbirlərinin səviyyəsinin monitorinqi və vəziyyətin yerində öyrənilməsi məqsədilə Bakı Şəhər Baş Polis İdarəsi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yaşayış məhəllələrində, komplekslərdə, həyətlərdə birgə reydlərə start verilib. Gün ərzində polis əməkdaşları dövlət qurumlarının nümayəndələri ilə birlikdə sakinlərlə görüşür, fərdi söhbətlər aparırlar.




Reydlər zamanı yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə vətəndaşlara ilk növbədə virus əleyhinə vaksinasiya olunmağın vacibliyi izah edilir.

Bakı şəhər Baş Polis İdarəsindən "Polis"ə bildirilib ki, ictimai iaşə obyektlərində, ictimai nəqliyyatda, qapalı məkanlarda, yeraltı və yerüstü keçidlərdə karantin rejimi qaydalarına riayət olunma vəziyyətinin gücləndirilməsi məqsədilə davam etdirilən reydlər hər gün, növbəli olaraq, Bakının iki rayonunu əhatə edir. Xüsusi nəzarət – yoxlama tədbirləri səhər saat 09:00-dan başlayıb axşam 00:00-dək keçirilir.

Polis əməkdaşları pandemiyadan xilas olmaq üçün vətəndaşlarımıza özlərini, yaxınlarını, ətraflarındakı insanları qorumaq, xəstəliyin daha çox yayılmasına imkan verməmək üçün tibbi-profilaktik qaydalara ciddi riayət etmələrini tövsiyə edir, qayda pozuntusuna görə qanunvericilikdə nəzərdə tutulmuş cəza tədbirləri barədə məlumat verirlər.

*"Polis"*

# Şuşada silah-sursat aşkar edilib

İşğaldan azad edilmiş ərazilərdə silah-sursatların, mina və digər partlayıcı vasitələrin aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Şuşa Rayon Polis Şöbəsinin və Dövlət Təhlükəsizliyi Xidmətinin müvafiq qurumlarının əməkdaşlarının birgə keçirdikləri növbəti tədbirlər zamanı şəhər ərazisindən pulemyot, avtomat, 3 əl qumbarası, qumbaraatan mərmisi, 691 ədəd 7.62 kalibrli patron və digər döyüş sursatları aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.



# POLİS OĞLUNUN UĞURU

## Elm, musiqi və idman arenalarında onlarla polis övladı ölkəmizi layiqincə təmsil edir

**Ölkəmizi Tokio-2020 Yay Olimpiya Oyunlarında uğurla təmsil edərək medal qazanan idmançılar sırasında polis övladının olması qürurvericidir.**

Yunan-Roma güləşi üzrə Azərbaycan millisinin üzvü, 2 qat Avropa və Dünya Kubokunun sahibi Rafiq Hüseynov ***Azərbaycanın əməkdar məşqçisi, DİN-in İdman Cəmiyyətinin Təlim şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Radik Hüseynovun*** oğludur.

Bu gün həmkarımızın adı veteran idmançılar, eləcə də məşqçilər arasında hörmətlə çəkilir. Onun idman karyerasının çiçəkləndiyi dövrü SSRİ dönəminə təsadüf etsə də doğulduğu qədim Azərbaycan torpağı İrəvanda ermənilərin ayrıseçkiliyi ilə çox rastlaşıb.

Fürsəti əldən verməyib illərin o üzünə körpü saldıq. Bəlkə də çoxumuzun bilmədiyi, elə oxucularımızın da marağına səbəb olacaq fikirləri bölüşmək üçün onun idmançı və məşqçi kimi uğur yoluna işıq tutduq.

Polis polkovnik-leytenantı Radik Hüseynov 1962-ci ildə İrəvanda doğulub. Kiçik yaşlarından idmanda qazandığı nailiyyətləri ilə azərbaycanlıların adını ucaldıb. R.Hüseynov dəfələrlə beynəlxalq turnirlərin qalibi və mükafatçısı olub. 1980-ci ildə Almaniyanın Qrandenburq şəhərində "Dinamiada" çempionatında 1-ci yeri tutması onun idman istedadının çox qələbələrə yol açacağından xəbər verirdi.

Həmkarımız 1985-ci ildə SSRİ Ali Milis Məktəbinə daxil olur və idmançı kimi bir çox uğurlara imza atır. Qazandığı təcrübə onun peşəkar məşqçi kimi formalaşmasında mühüm rol oynayır. Bu gün yetirmələri arasında dünya və Avropa çempionları var.




Dünya və Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qalibi, DİN İdman Cəmiyyətinin təlim şöbəsinin inspektoru, polis baş leytenantı Kamran Məmmədov, 3 qat Avropa mükafatçısı və qalibi, Azərbaycan çempionu Hacıxan Mustafayevin karyerasında həmkarımızın xidmətləri əvəzsizdir.

Yeri gəlmişkən, Tokioda ölkəmizə bürünc medal qazandıran Rafiqin elə ilk müəllimi atası olub. Olimpia mükafatçımız idmanda ilk addımlarını da DİN İdman Cəmiyyətində atıb.

"Polis"in suallarını cavablandıran Radik Hüseynov oğlunun bürünc medal uğrunda mübarizəsini həyəcanla izlədiyini deyir: "Onun görüşünü ailəlikcə izləsək də, həyəcandan nə anası, nə də qardaşları axıra qədər izləyə bilmədilər. Ata və məşqçi kimi o anlarda özümə yer tapa bilmirdim. Çünki 50 milyonluq Azərbaycan xalqı idmançımızdan qələbə müjdəsi gözləyirdi. Mən bir məşqçi kimi yetirməmin də, onun rəqiblərinin də zəif və güclü tərəflərini görürdüm. Nəticə ümidvericidir. Deməli, gələcək illərdə qızıl medal üçün daha çox çalışmalı, daha çox məşq etməliyik".

Rafiq Hüseynov Tokioda keçirilən Yay Olimpia Oyunlarının ¼ final mərhələsində Qırğızıstan təmsilçisinə məğlub olsa da, əsas növbəti görüşdə ermənİ idmançısı Karapet Çalyanı 4:1 hesabı ilə məğlub etdi. Bu qələbə bizim üçün olduqca vacib idi, çünki ötənilki Vətən müharibəsindəki zəfərimizdən sonra qalib gəlmək ümümi qələbəmizə mühüm töhfə olacaqdı.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə idmanda yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Hüseynov Rafiq Radik oğlu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, polis polkovnik-leytenantı Hüseynov Radik Rafiq oğlu isə "Tərəqqi" medalı ilə təltif edilib.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# YENİ MÖVZULARLA GƏLMİŞİK...




***“Asayişin keşiyində” jurnalının növbəti - 13-cü buraxılışı artıq oxucuların ixtiyarındadır. Bu məcmuəmizdə də ötən aylar ərzində ölkəmizin və daxili işlər orqanlarının həyatında baş vermiş olduqca önəmli hadisələri, ictimai maraq doğuran xəbərləri, tarixi faktları toplamışıq.***

“Polis günü” ərəfəsində xidmətdə fərqlənən həmkarlarımızın ölkə rəhbəri tərəfindən mükafatlandırılması ilə bağlı imzalanmış sərəncamlar jurnalımızın ilk səhifələrindədir. Dövlət başçısının bu diqqəti bizim üçün, eyni zamanda, Azərbaycan Polisinin mövcud olduğu 103 illik mübarizə ilə yoğrulan tarixinə bir töhfə idi. Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun jurnalda şəxsi heyətə ünvanladığı təbrikində də qeyd etdiyi kimi, bütövlükdə Azərbaycan Polisinin əməyinə verilən böyük dəyərin əyani ifadəsi kimi bu sərəncamlara yer vermişik.

Bizim üçün birlik, qayıdış, ləyaqət və musiqi bayramı olan, tarixi hadisə kimi yüz illər bundan sonra da xatırlanacaq “Xarıbülbül festivalı”nda Şuşadan dünyaya yayılan zəfər nəğmələrinin siyasi əhəmiyyətini, onun ardınca Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu əzəli və əbədi yurdumuza səfərini, səfər zamanı Şuşa Bəyannaməsinin imzalanmasının sevincini ifadə etməkdən zövq almışıq.

Bundan başqa, Prezident İlham Əliyevin açılışını etdiyi Daxili Qoşunların “N” saylı hərbi hissəsində hərbçilərimiz üçün yaradılan şərait barədə, Qoşunların Ali Hərbi Məktəbində və Polis Akademiyasında 2020-2021-ci tədris ilinin buraxılışlarına həsr olunmuş təntənəli mərasimlərdən, eləcə də Daxili İşlər Nazirliyində keçirilən qəbullardan və cari ilin birinci yarısında cinayətkarlıqla mübarizənin vəziyyətinə həsr olunmuş Kollegiya iclasından müfəssəl məlumat almaq istəyən oxucularımız üçün sayımızda yetərincə məlumat vardır.

Nəfis tərtibatı ilə diqqət çəkən, mövzularla fotoların harmoniya təşkil etdiyi jurnalımızda bu dəfə çalışmışıq ki, sözün bitdiyi yerdə, həm də şəkillər “danışsın”. Diqqətli oxucu, yəqin ki, hər bir məqaləyə əlavə edilən məlumat xarakterli kiçik qeydlərlə qarşılaşanda bunun fərqinə varacaq, “sarı simə” toxunduğumuzu hiss edəcək.

Vətən müharibəsindən sonra azad edilən torpaqlar, oralara qayıdış kimi mövzular da bədii-publisistik üslubda işlənib. Oğlunun məzarını ziyarət etmək istəyən 84 yaşlı Güldəstə ananın müraciətinə müsbət cavab verən DİN-in köməkliyi ilə onun 29 illik həsrətdən sonra oğluna qovuşması, azad edilmiş ərazilərdə düşmənin mina tələsi yaratması kimi problemlər, qədim-qayım yerlərimiz üçün vuruşan Daxili Qoşunların hərbi qulluqçuları barədə yazılar oxucularımızda aydın təsəvvür yaradacaq.

Bu sayımızda DİN-in arxivi, sağlamlığımızın keşiyini çəkən hospitalımızdakı ağ xalatlı xilaskarlarımızın fəaliyyəti barədə məqalələrlə yanaşı, bədii-poetik nümunələr, tarixi faktlarla da tanış ola biləcəksiz.

Necə deyərlər, yazmaq bizdən, oxumaq sizdən.

*“Polis”*

# QAYDALARA ƏMƏL EDƏK, YOLUXMAYAQ

## *Vətəndaş məsuliyyətsizliyinə qarşı elə vətəndaş özü mübarizə aparmalıdır*

Yoluxanların sayının günbəgün artması həyəcan təbiidir və artan ölüm statistikası vəziyyətin daha ciddiyə alınmasının vacibliyini şərtləndirir. Məsələ ilə bağlı araşdırma apardıqda isə kökündə, əsasən, vətəndaş məsuliyyətsizliyinin dayandığı görünür. Belə ki, İsmayıllıda, Lənkəranda, Zərdabda, Biləsuvarda və Cəlilabadda aktiv koronavirus xəstələrinin ictimai yerlərdə aşkarlanaraq Rayon Polis şöbələrinin əməkdaşları tərəfindən məsuliyyətə cəlb olunmaları, İmişlidə iki çay evinin karantin qaydalarına zidd fəaliyyət göstərməsi, paytaxtda və yerlərdə ictimai nəqliyyatda tənəffüs yollarını qoruyan tibbi maskalardan istifadə etməyən sərnişinlərin sağlamlıqlarına laqeyd yanaşması, habelə bəzi vətəndaşların vaksinasiyadan boyun qaçırması halları bunu deməyə əsas verir.




Polis əməkdaşları tərəfindən keçirilən reydlər zamanı onlarla belə hallara rast gəlinir. Ev şəraitində müalicə alan aktiv virus daşıyıcılarına xəbərdarlıq edilməsinə baxmayaraq onlar ünvanlarını tərk edir, yoluxmanın artmasına şərait yaradır, eləcə də digər vətəndaşların sağlamlığını ciddi təhdid altına qoyurlar.

Nəzərə alaq ki, virusla mübarizədə laqeydlik, qaydalara əməl etməmək kimi məsuliyyətsizlik özümüzlə bərabər yaxınlarımızın da həyatını riskə atır. Bu nöqteyi-nəzərdən asayiş keşikçilərinin koronavirusla mübarizəsinin effektivliyinin artması, yoluxma faizinin aşağı düşməsi üçün vətəndaşlar görülən işlərdə polisə yaxından köməklik göstərməli yəni, vətəndaş məsuliyyətsizliyi ilə elə vətəndaş özü mübarizə aparmalı, bir sözlə, qaydalara riayət etməyənlər, qanunlara saygısızlıq göstərənlər ictimai qınağın hədəfi olmalıdırlar. Əgər cəmiyyət olaraq bunu bacarsaq, ən əsası, infeksiyanın yayılmasının qarşısının alınmasında ilk növbədə vaksinasiya olunmağın vacibliyinə dırnaqarası baxmasaq, o zaman tezliklə arzuladığımız həyata qovuşmuş olarıq.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Monitorinqlər nəticəsində...




Avqustun 11-dən 17-dək olan müddət ərzində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 341 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinq 306 şadlıq sarayını, 35 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 44 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 4 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;
- 1 nəfər barədə material baxılması üçün məhkəməyə göndərilib;
- 1322 nəfər “COVID-19” pasportu olmadığına görə şənliyə buraxılmayıb.

# Rənglərin mübarizəsi



Dünyanı cənginə alan narkomaniya nüvə silahından da güclü bir hala gəlib. Onunla mübarizə çətin olsa da, zaman tələb etsə də dünyamızı, arzularımızı, gələcək uğurlarımızı, bir sözlə, bəşəriyyəti qorumaq naminə birləşib həmrəy olmalıyıq.

***Bu tablonu isə redaksiyamıza Azərbaycan Rəssamlar İttifaqının üzvü Malik İsmayılzadə göndərib.*** O, cinayətkarlıqla qətiyyətli mübarizə aparan, gənclərimizi və gələcəyimizi “ağ ölüm”ün bəlasından qorumaq üçün canını fəda edən Azərbaycan Polisinə dəstəyini, övladlarının gələcəyindən narahatlığını isə bir ata kimi rənglərin dili ilə belə ifadə edir.

# “ÇƏTİN ADAM”LARLA ÜNSİYYƏT TEXNİKASI

## *Peşə bacarıqlarımızla və vərdişlərimizlə harmoniya təşkil edən məqamlar*

**Etika Akademiyasının rəhbəri, insan resurslarının idarə olunması üzrə mütəxəssis Günel İbrahimin “Polis” üçün hazırladığı məqaləni sizlərə təqdim edirik. İnanırıq ki, həmkarlarımız xidmət zamanı vətəndaşlarla ünsiyyətdə olarkən burada qeyd olunan bəzi məqamlardan yararlanacaqlar.**




Leksikonumuzda “çox çətin adamdır”, “onunla ünsiyyət qurmaq olmur” kimi ifadələri tez-tez işlədirik. “Çətin adamlar”ı, adətən, kollektivlə ünsiyyət zamanı “kəşf edirik”. Çünki işgüzar mühitdə insanları biz seçmirik və hər kəslə ünsiyyət qurmaq zərurəti yaranır. Əvvəlcə “çətin adam”ların tiplərinə nəzər salaq.

### Şikayətçi

Bu adamların həyatında hər şey həmişə pisdir. İşləri yolunda olsa da bu, onların xoşbəxt olmağı üçün səbəb deyil. Onlar hər zaman diqqət mərkəzində olmaq, başqalarının onların şikayətlərini dinləməsini və onlarla razılaşmalarını istəyirlər. Nəticədə bütün bunlar qarşı tərəfin əhval-ruhiyyəsini pozur və enerjisini tükəndirir.

Narazılıq şikayətçinin əsas duyğusu, xarakter xüsusiyyətidir.

### Antaqonist

Aqressiv və əsəbidir. Bəzi antaqonistlər, məsələn, şovinizmə, bir baxışlı əqidəyə tam bağlanar, fikirləri ilə razı olmayanlara düşmənçilik edərlər.

Bir anda əsəbiləşən, özündən çıxan antaqonist çevrəsindəkiləri günahlandırmağı və onlara hücum etməyi sevir. Cəmiyyət onun davranışını kəskin şəkildə qınayanda, o, metodunu dəyişir, yəni passiv təcavüzü zarafatlarla həyata keçirir. Belələri sizi əsəbiləşdirə, təhqir edə və ya strese sala bilər.

Antaqonistin xarakter xüsusiyyətləri qəzəb və antipatiyadır.

### Narsist

Dünyanın onun ətrafında fırlandığını zənn edir və hər kəsin bunu bilməsini istəyir. Uğurlarından və bacarıqlarından bəhs etməkdən zövq alır. Onun üçün başqalarının diqqəti və heyranlığı çox mühümdür.

Narsistin əsas duyğusu qürurdur.

### Əbədi rəqib

Bu şəxslər elə zənn edərlər ki, onların fikri hər kəsin fikrindən önəmlidir, aktualdır. Onlar öz düşündüklərinin yeganə doğru olduğuna inamın əsirinə çevrilib. “Əbədi rəqib”lər intellektual, maddi və digər cəhətlərdən hər şeydə digərlərindən daha yaxşı olduğuna inanırlar.

Onlar qüsurlarını gizlədir, üzr istəməkdə və ya səhvlərini qəbul etməkdə çətinlik çəkir, hər yerdə və hər şeydə başqalarından daha yaxşı görünmək (və olmamaq) istəyirlər. Onların gizli “sılah”ı tanınma, heyranlıq və bəzən təslim olmadır.

Daim mühakimə və müqayisə etsələr də belələri xoşbəxt və ya bədbəxt olduqlarını başa düşə bilmirlər. "Bəyənilmək" hissi onlar üçün hər şey deməkdir. Təkəbbürlü olmaq əbədi bir rəqibin əsas duyğusudur.

Yeri gəlmişkən, insanların hansının "çətin" olduğunu yəqin etdikdən sonra onlarla ünsiyyət qurmağın ən təsirli üsulunu tapmaq çox asan olur. Şikayətçi və ya antaqonistə "hücum" etmək əvəzinə ondan soruşun: "Təklifiniz nədir?" və ya "Sizcə, yeganə düzgün qərarı siz qəbul edirsiniz?"

Şikayətçiyə: “Şikayətlərinizi eşitdim və sizi narahat edən məsələlərdən hali oldum. Siz özünüz hansı həll yolunu tövsiyə edirsiniz?"

Bu xüsusiyyətlərə malik insanlarla ünsiyyət zamanı onlara qəti şəkildə “Sizi burada dayandırmalıyam” deyərək güclü və özünə inamlı bir tərzdə ona münasibət bildirərkən özünüzü sərbəst, səsinizi sakit və bərabər tutmağı unutmayın.

# BİNƏQƏDİDƏ REYD KEÇİRİLİB




Polis uşaq əməyinin istismarına qarşı həm maarifləndirici, həm də inzibati tədbirlər həyata keçirir.

Məlum olduğu kimi, ölkəmizin qanunvericiliyi uşaqların həyat və sağlamlığına, mənəviyyatına təhlükə törədə biləcək işlərə cəlb edilməsini qadağan edir. Buna görə də polis əməkdaşları yerlərdə uşaq hüquqlarını ciddi şəkildə pozan, onların fiziki, sosial-əqli, psixoloji inkişafına zərər vuran uşaq əməyinin istismarının qarşısını almaq üçün daim məsələni diqqətdə saxlayırlar.

Binəqədi rayonunda da uşaqların qanunsuz əməyə cəlb edilməsini önləmək məqsədilə polis əməkdaşları ardıcıl tədbirlər görürlər.

Binəqədi RPİ-dən aldığımız məlumata görə, polis əməkdaşlarının keçirdiyi son reydlər zamanı iki uşağın qeyri-qanuni əməyə cəlb edilməsi faktı aşkar edilib. Avtomobil emalatxanasında işlədilən uşaqlara görə obyektin sahibi Yalçın Şirinov barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən protokol tərtib olunub.

Uşaqların valideynləri isə polis idarəsinə dəvət edilərək, onlarla profilaktik söhbətlər aparılıb, uşaq əməyinin istismarı və məcburi əməyə cəlbetmə hallarının yolverilməzliyi barədə ətraflı məlumat verilib.

Analoji tədbirlər davam etdirilir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# YANĞININ QARŞISI ALINIB

Avqustun 17-si saat 22:00 radələrində Səbail rayonundakı restoranların birində baş verimiş yanğının qarşısını Səbail Rayon Polis İdarəsinin əməkdaşları alıblar. Bu barədə Bakufakt.az saytının baş redaktoru Zamiq Quliyev sosial şəbəkə səhifəsində məlumat yayımlayıb. O, qeyd edib ki, polisin dərhal müdaxiləsi nəticəsində ərazidə təhlükəsizlik zolağının yaradılması təmin edilib, restorandakı şəxslər təxliyyə olunublar.

Hadisə yerindən fotoları təqdim edirik.








# ZƏNGƏZUR TOPONİMLƏRİ

**Qədim Azərbaycan torpağı olan Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisyan), Mehri (Meğri) Zəngilan, Qubadlı və Laçının bir hissəsini əhatə edir. XX əsrin əvvəllərində Zəngəzurda 149 türk, 91 kürd və 81 erməni kəndi var idi.**

Möhtərəm Prezidentimizin "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük, halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır." fikri hər birimizə gələcək hədəflərimizə çatmaq üçün bir çağırışdır. Odur ki, tariximizi, ədəbiyyatımızı daha dərindən öyrənməli, qorumalı və onu bizdən sonra gələnlərə ərmağan etməliyik.

***Milli Məclisin deputatı Musa Urudun "Zəngəzur toponimləri" kitabında yer alan qədim yurd yerlərimizi tanımaq və tanıtmaq üçün "Polis" qəzeti bu gündən bələdçiniz olacaq.***

**Ağadi Mehralı –** Qarakilsə (Sisyan) rayonunda kənd adı. Ağudili Mehrəli adlı şəxsə məxsus kənd mənasındadır. Kənddə 1886-cı ildə 116 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağıdılmışdır.

**Ağakəndi –** Qarakilsə (Sisyan) rayonunda kənd adı. Yazılı mənbələrdə 1468-ci ildən adı çəkilir. İrəvanda Matenadaran arxivində saxlanılan 1508-ci il 08 noyabr tarixli alqı-satqı qəbaləsində Ağakəndinin Tatev monastırma bağışlandığı təsdiq edilir. "Urud və İsgəndər qalası livalarının müfəssəl dəftəri"ndə (1593-cü il) dağıdılmış azərbaycanlı kəndi kimi göstərilir.

**Abdallar -** Laçın rayonunda kənd adı. S.Zelinskinin 1886-ci ildə tərtib etdiyi "Экономический быт государственных крестьян в Зангезурском уезде Елизаветпольской губернии" (Yelizavetpol quberniyasının Zəngəzur qəzasında dövlət himayəsində olan kəndlilərin iqtisadi vəziyyəti) adlı tədqiqat əsərində bu kəndin Zerti, Qarı kahası, Koroviz adlı bina yerinin olduğunu göstərir. 1924-cü ilə qədər poçt məntəqəsi kimi tanınmış, həmin ildə əsası qoyulan Laçın qəsəbəsinə birləşdirilmişdir. Adın mənası ağ hunların bir qolu olan abdal (heptal, efdal) tayfası ilə bağlıdır. Orta əsr alban tarixçisi Moisey Kalankatlı Qafqaz Albaniyasında abdal tayfasının yaşadığını və onların Makedoniyalı İskəndər tərəfindən buraya köçürüldüyünü yazır. XI- XIII əsrlərdə səlçuqlanın və moğolların tərkibində abdalların yeni köçü Qafqaza və Türkiyə ərazisinə gəlmişdir. Azərbaycanda bir




neçə (Ağdam, Tovuz, Ordubad və Oğuz rayonlarında) Abdal kəndi, Türkiyədə Amasiya bölgəsində Yaycı Abdal, Kastomonu bölgəsində Abdal kəndləri, Bolqarıstanın Varna şəhəri yaxınlığında Yunus Abdal kəndləri vardır.

**Ağabaş -** Qarakilsə (Sisyan) rayonunda kənd adı. 1590-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə Sisyan nahiyəsində kənd olaraq göstərilmişdir. Mənbədə Əlili kəndi ilə birgə qeyd olunmuşdur. Ağa şəxs adından və farsca bəş - "əkin yeri" sözündəndir. Ağanı əkin yeri mənasındadır. 1595-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə bu kənddə yaşayan Ömər adlı şəxsin timar sahibliyi qeyd olunur. Sonrakı mənbələrdə adı çəkilmir.

**Ağaçay -** Qubadlı rayonu ərazisində çay. Bərgüşad çayının qolu. Yerli sakinlərin verdiyi məlumata görə çayın adı bölgədə yaşamış hörmətli bir seyidin şərəfinə belə adlandırılmışdır.

**Abgəz -** Mehri rayonun Aldərə kəndinin yaxınlığında kənd. D.D.Paqirevin 1913-cü ildə tərtib etdiyi "Qafqazın beşverstlik xəritəsinin adları göstəricisi" toplusunda və Qafqazın hərb topoqrafik xəritəsində kəndin adı Abqyaz şəklində göstərilmişdir. Yuxarı Vartanizor və Mərzəkit kəndlərinin yaxınlığında yerləşirdi. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq əhali qonşu kəndlərə köçmüş , kənd ölü kəndə çevrilmişdir. Oykonim 2 tərkib hissədən ibarətdir. Fars mənşəli ab (su ) və türk dilinə məxsus "gəz" sözlərindən (aşırım dağın ən yüksək iti yeri gəzdək dağ çökəyi) ibarət olub "Dağ suyu" mənasını verir.

# Çətənə kolları məhv edilib

"Xaşxaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində Samux RPŞ əməkdaşları Sərkar kənd sakini R.Hüseynova məxsus həyətyanı sahədən 2, Ağdaş RPŞ əməkdaşları Orta Ləki kənd sakini M.Məhərrəmova məxsus həyətyanı sahədən 11, Göyçay RPŞ əməkdaşları şəhər sakini F.Məmmədova məxsus həyətyanı sahədən 7, Bərdə RPŞ əməkdaşları Dəymədağlı kənd sakini İ.İsmayılova məxsus həyətyanı sahədən 15 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər.

*Natiq Cavadov,*
*polis mayoru*

# NARKOTACİRLƏRƏ QARŞI ƏMƏLİYYATLAR DAVAM ETDİRİLİR

*Əvvəli 1-ci səhifədə.*

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Astara rayonunda həyata keçirdikləri əməliyyat zamanı narkotik maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsini təşkil edən rayonun Şahağacı kənd sakinlərindən ibarət mütəşəkkil dəstənin üzvləri saxlanılıblar. Nəticədə kənd sakinləri, əvvəllər məhkum olunmuş Əlibala Məmmədov, Fazilə Rzayeva, Şəhruz Quliyev, Ramin Ağayev, Şəhriyar Mirzəyev və İsmayıl Mirzəyev tutulublar. Dəstə üzvlərinin hər birinin üzərindən və yaşadıqları evlərdən ümumi çəkisi 316 qram olan heroin və metamfetamin aşkar edilib.

Qeyd edək ki, adları sadalanan şəxslərin ətraflarında əməliyyat tədbirləri həyata keçirilən zaman onların xaricdə yaşayan və ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə narkotik maddələr göndərməyə çalışan narkotacirlərlə sıx əlaqələrinin olduğu müəyyənləşib. Araşdırma zamanı bu şəxslərin narkotik maddələrin ölkə ərazisində yayılması üçün kuryerlik etdikləri və satışı ilə məşğul olduqları da məlum olub.

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Lənkəran şəhəri və Biləsuvar rayonunda həyata keçirdikləri əməliyyatlar zamanı narkotik maddələrin dövriyyəsi ilə məşğul olan Şahin Ağayev və Ramil Quluzadə də saxlanılıb.

Sonuncu əməliyyatlar zamanı ümumilikdə 24 kiloqrama yaxın narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb. Saxlanılan şəxslərdən 19-u barəsində




həbs qətimkan, 1 nəfər haqqında isə alternativ növdən olan qətimkan tədbiri seçilib.

Qeyd edək ki, saxlanılan şəxslərdən bəziləri aktiv narkotik vasitə və psixotrop maddə istifadəçisidir. Müayinələr zamanı bu şəxslərin bir neçəsinin narkotik vasitə istifadə etməsi nəticəsində insan həyatı üçün olduqca təhlükəli olan hepatit və QİÇS virusuna yoluxduqları və daşıyıcı olduqları müəyyən edilib.




**Abşeron RPİ-yə** avqustun 9-da Sulutəpə qəsəbəsi ərazisində Bakı şəhər sakini E.Hüseynovun idarə etdiyi "Ford" markalı avtomobilin naməlum sərnişini onu bıçaqla hədələyərək 410 manatını alıb avtomobildən düşərək getməsi barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Qobustan rayon sakini, əvvəllər məhkum olunmuş A.Lətifov saxlanılmışdır.

◆◆◆

**Səbail RPİ 41-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində avqustun 12-də rayon ərazisində avtomobildən 1150 manat və 1900 ABŞ dolları oğurlamaqda şübhəli bilinən paytaxt sakini X.Mustafayev saxlanılmışdır.

◆◆◆

**Qaradağ RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Qobustan qəsəbə sakini E.Qədimovdan "Naqan" markalı tapança və 2 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Astara RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə rayon ərazisindəki evlərin birindən 3500 manat dəyərində qızıl-zinət əşyaları, mobil telefon və qulaqcıq oğurlamaqda şübhəli bilinən rayon sakini İ.Cəfərli saxlanılmışdır.

## Avqust ayının 11-dən 17-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 276 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 26 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 249, o cümlədən borclu şəxs qismində axtarışda olan 142 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 20 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 24 nəfər ölmüş, 13 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 192 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik